# Filologiya fakültəsində 2022-ci ildə keçiriləcək elmi tədbirlər:

1. Ulu öndər, ümummilli lider H.Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi" mövzusunda respublika konfransı - 13 may

Ulu öndər Heydər Əlirza oğlu Əliyevin hər iki dönəm dövlət başçısı olduğu dövrdə Azərbaycan dilinin və ədəbiyyatının inkişafı yolunda ardıcıl dövlət siyasəti yürütməsini göz önündə tutaraq, fakültədə 2022-ci ilin may ayında "Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi" adlı konfransın keçirilməsi planlaşdırılır. Konfransda fakültənin professor-müəllim heyətinin elmi işlərinin təqdim olunması, eyni zamanda, doktorant və magistrlərin tədqiqat işlərinin nəticələrini əks etdirən məruzələrin dinlənilməsi və müzakirə olunması nəzərdə tutulur. Respublikanın digər ali təhsil ocaqları, elmi müəssisələrindən iştirakçıların qatılması filologiyanın aktual məsələlərinin yeni konseptual aspektdə nəzərdən keçirilməsi, dilçiliyin və ədəbiyyatşünaslığın əsas elmi istiqamətlərinin müəyyənləşdirilməsi üçün əhəmiyyətli olacaq.

2. 44 günlük Vətən müharibəsində qazanılmış böyük Zəfərin 2-ci ildönümünə həsr olunmuş "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu" adlı Respublika elmi konfransı – 1 noyabr

Tarixi qələbəmiz sayəsində geri qaytardığımız torpaqların iqtisadi baxımdan dirçəldilməsi ilə yanaşı, Qarabağla bağlı mənəvi irsimizin də bərpa və inkişaf etdirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Böyük Zəfərin ildönümünə həsr olunmuş bu konfransda Qarabağ ədəbi-mədəni mühiti, Qarabağ torpağının yetişdirdiyi məşhur ədəbi şəxsiyyətlər, Qarabağ bölgəsinin dialektləri, onomastikası, Qarabağ mövzulu bədii əsərlərlə bağlı araşdırmalar müzakirə olunacaq.

## Elmi seminarlar:

1. Görkəmli Azərbaycan şair və dramaturqu Hüseyn Cavidin 140 illiyinə həsr olunmuş "Gözəllik və həqiqət aşiqi" adlı elmi seminar

Azərbaycan şairi, yazıçı və dramaturq, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi olan Hüseyn Cavid milli romantik şeirin və mənzum faciənin banisidir. Onun zəngin yaradıcılığı hər zaman müasir və maraqlıdır, yeni araşdırmalar üçün mənbə ola bilər.

2. Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş "Qarabağın inciləri: Xurşidbanu Natəvan" mövzusunda elmi seminar

Lirik qəzəllər ustadı, rəssam, xeyriyyəçi Xurşidbanu Natəvan XIX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tanınmış simalarından olmuşdur. Hazırkı dövrdə Qarabağın tarixi və ədəbi-mədəni mühitinin real mənzərəsinin yaradılması baxımından Xan qızı Natəvanın ədəbi-bədii yaradıcılığının araşdırılması xüsusilə təqdirəlayiqdir.

## 3. Akademik Ağamusa Axundovun anadan olmasının 90 illik yubileyi münasibətilə “A.Axundov və filologiya məsələləri” mövzusunda elmi seminar

Azərbaycan dilçilik elminin görkəmli nümayəndəsi, türkoloq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı, Azərbaycan Respublikası Əməkdar elm xadimi Ağamusa Axundovun yaradıcılığına həsr olunan seminarda onun zəngin elmi yaradıcılığının əsas tədqiqat istiqamətləri aradırılacaq.